

Elxan ZAL QARAXANLI

**AZƏRBAYCAN SİMFONİYASI**
(poemadan parça)

Biz küldən boy verib yol başlayanda
Düşmən pəncəsinə keçdi Qarabağ.
Hürrün şərbətini ovuclayanda,
Savaş mələkləri bizə qıyanda,
Uduzduq, yenildik, sınmadıq ancaq.
Qarabağ millətin and yeri oldu,
Perik könüllərin bənd yeri oldu.
Bir bina tikildi, bir yurd quruldu,
Zəfərə tuşlanan yola varıldı.
Xalq öz dövlətiylə bir vücud oldu,
Hər könlün başına möhür vuruldu.

İçində eşq olan yenilməz müdam,
Böyük amalların önü pərdədir.
Qarabağ bizimdir! – söylədi İlham,
Türk ruhu anlamaz yenilmək nədir,
Böyüklük yapılan əməllərdədir.
Ərənlik duyğusu açanda şırım,
Şərəf kitabını yazır ildırım.
O, düşmən var isə, xıncaram, – dedi,
Tuğumu Şuşaya sancaram, – dedi.
Burda, Azərbaycan torpaqlarında
Elxanam, Teymuram, Səncərəm, – dedi.

Zaman uzandıqca dəyişdi dövran,
Tanrı öz nurunu yol etdi bizə.
Sözünü ortaya qoydu Komandan:
–Siz qan istədiniz, alın bu da qan,
Torpaq yox, mərmilər peşkəşdir sizə.
İrəli gedincə İlhamın ordusu,
Dördayaq zıplayan erməni qan qusur.
Türk gəlir, qaç qurtar, sonundur, yağı,
Ərənlər gətirir üçrəngli bayrağı.
Tanrı müjdəçisi böyük ərənlər,
Düşmən tapdağında qoymaz torpağı.

Salam olsun, Azər Vayjanın maqları...
Salam olsun, Pompeyi yenən ərlər.
Salam olsun, Elxan Bumın,
Salam olsun, ulu Heydər!
Salam olsun, böyük İlham!
Bu vətən bizimdir, bizimdir zəfər!